*Əlivahid Çaylı*
*AYB və AJB-nin üzvü*



## *Salam de*

Unudulub məhəbbət də, sevgi də,
Yaddan çıxıb, evdə qalıb güzgüdə.
Xoş təbəssüm axtarıram özgədə,
Vətən oğlu, övladına salam de!

El sobasız, hava tutqun, bulud lal,
Daş-kəsəkli yollarından xəbər al.
İşdi, gəlsən bir gecəlik, qonaq qal,
Şair ruhlu torpağına salam de!

Ağsaqqal, ağbirçək dərdi yaradı,
Çoxusunun fikiri puldu, paradı.
Deyərdim, bəzisi quldu, qaradı,
Zəif yanan çırağına salam de!

Sürü-sürü qoyunları çöllərdə,
Çoxdu sayı lal-dinməz ölülər də.
Maşınların toz basıb küçələrdə,
Əziz-xələf qonağına salam  de!

Şeir yazmağım ilahidən sirdi,
Mənim hər kəlməm qılıncdan itidi.
Kəsərin bilən qorxudan kiridi,
Sualına, sorağına salam de!

Əlvahidəm, ürəyim sizinlədi,
Arzum böyük, diləyim sizinlədi.
Unum, urfam çörəyim sizinlədi,
Təknəsinə, tabağına salam de!

## *Sehrlənmiş səs*

***6-cı Muğam müsabiqəsinin laureatı Məftun Məmmədova ithaf***

Ey Arif olan, arif nədi?
Nadir inci, tapıntıyam mən.
Açılsa misramın bir bəndi,
Aqillərin aqiliyəm mən.

Arzusu tükənməz ürəkdə.
Gümüş qolbağı ağ biləkdə,
Ətir saçar gül də, çiçək də,
Çəmənlərin aşiqiyəm mən.

Yaxşılıq... əbədi bir ocaq,
Daim, insanlıq  ucalacaq.
Nadanlar, -  odunda  yanacaq,
Yanan közün şahidiyəm mən.

Arxa  olsanız  yaxşılara,
Ehtiyac qalmaz  naxışlara.
Kölgə də düşməz baxışlara,
Alimlərin alimiyəm mən.

Musiqidi qəlbin qidası,
Xoşdu hamıya öz ədası.
Bizi Məftun edər, sədası,
Xoş avazın sahibiyəm mən.

”Şirvan Şikəstə”si səsində
”Seygah”ın duyar nəfəsində,
Gəzər ”Sarənc”in həvəsində,
“Rastın”, “Şurun” rüxsarıyam mən.

Ələnər yolların  izləri,
Yelkənsiz gəzər dənizləri,
Məftun edər, Məftun bizləri,
Göy Xəzərin sahiliyəm mən.

Mən nə deyim ki, düz olana,
Gəzə dünyanı, düz dolana,
Dəyişmərəm haqqı yalana,
Son sözümün qalibiyəm mən.

Əli Vahidəm, iz salmışam,
İllər boyu yolda qalmışam.
Eşqində həsrətlə yanmışam,
Məcnunların məcnunuyam mən,
Əsil-kökəm, Şirvanlıyam mən.

ədalət.2017.14 iyul.S.4.